*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27-4 saylı Qərarı ilə təsdiq edilmiş və 2019-cu il 15 mart tarixli 1/2 saylı Qərarı ilə dəyişiklik edilmişdir.*

# Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) beynəlxalq (xarici) müşahidəçilərin fəaliyyət qaydaları haqqında

# T Ə L İ M A T

Bu Təlimat Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 40 – 42-ci və 44-cü maddələrinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında keçirilən seçkilər (referendum) (bundan sonra – seçkilər) zamanı beynəlxalq müşahidəçilərin qeydə alınması qaydasını, onların hüquq və vəzifələrini, habelə səlahiyyət müddətini və səlahiyyətlərinə xitam verilməsi qaydasını müəyyən edir.

## 1. Beynəlxalq (xarici) müşahidəçilərin dəvət olunması qaydası

1.1. Beynəlxalq (xarici) müşahidəçilər (bundan sonra – beynəlxalq müşahidəçilər) seçkilərin təyin edilməsi haqqında qərar (sərəncam) rəsmi dərc edildikdən sonra Seçki Məcəlləsinin 44.2-ci maddəsində nəzərdə tutulmuş qaydada dəvət olunurlar. Dəvətlər seçkilərin təyin edilməsi barədə qərar (sərəncam) rəsmi dərc edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) tərəfindən göndərilə bilər.

1.2. İnsan və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində nüfuzu olan qeyri-hökumət təşkilatları da beynəlxalq müşahidəçilərin dəvət olunması haqqında öz təkliflərini Milli Məclisin deputatlarına, Mərkəzi Seçki Komissiyasına, habelə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə verə bilərlər.

**Qeyd:** *Seçki Məcəlləsinin 44.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının beynəlxalq müşahidəçi kimi fəaliyyət göstərməsi qadağandır.*

## 2. Beynəlxalq müşahidəçilərin qeydə alınması qaydası

2.1. Beynəlxalq müşahidəçi statusunu əldə etmək niyyətində olan xarici vətəndaşlar qeydə alınmaq üçün seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək müvafiq ərizə ilə (Təlimata 1 saylı əlavə) Mərkəzi Seçki

Komissiyasına müraciət edir. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunur.

2.2. Hər bir ərizə əsasında qeydəalınma məsələsinə Mərkəzi Seçki Komissiyası tərəfindən 3 gün müddətində baxılır. Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər.

2.3. Müşahidənin aparılmasına icazə verildikdə Mərkəzi Seçki Komissiyası beynəlxalq müşahidəçiyə Azərbaycan Respublikasının dövlət dilində və xarici dillərin birində, onun təqdim etdiyi sənədlərə uyğun tərtib edilmiş vəsiqə-lövhəcik verir (Təlimata 2 saylı əlavə). Yalnız belə lövhəciyi əldə etdikdən sonra beynəlxalq müşahidəçi seçkilərin hazırlanması və keçirilməsi dövründə Seçki Məcəlləsinin 40-42-ci və 44-cü maddələrinə uyğun olaraq fəaliyyət göstərə bilər.

## 3. Beynəlxalq müşahidəçilərin statusu

3.1. Beynəlxalq müşahidəçilər Azərbaycan Respublikasının ərazisində olduqları müddətdə dövlətin mühafizəsi altına alınırlar. Beynəlxalq müşahidəçilər fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müstəqil və sərbəst həyata keçirirlər. Seçki komissiyaları, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları tərəfindən onlara zəruri kömək göstərilməlidir.

3.2. Beynəlxalq müşahidəçinin fəaliyyəti onu göndərən tərəfin və ya özünün şəxsi vəsaiti hesabına maliyyələşdirilir.

3.3. Beynəlxalq müşahidəçilər digər müşahidəçilərlə eyni hüquqlara malikdirlər və eyni vəzifələri daşıyırlar.

## 4. Müşahidənin aparılmasının prinsipləri

4.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır və bu prinsiplər müşahidəçinin lövhəciyinin arxasında göstərilməlidir:

4.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

4.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

4.1.3. müşahidə açıq aparılmalıdır;

4.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

4.2. Müşahidəçi müşahidəni aparan zaman yuxarıda sadalanan prinsiplərə hökmən əməl etməli, aşkar etdiyi faktları müəyyən olunmuş qaydada (buna dair müvafiq akt tərtib etməklə) rəsmiləşdirməli, imkan daxilində həmin faktların rəsmiləşdirilməsinə maraqlı şəxslərin diqqətini cəlb etməlidir. Seçki prosesində aşkarlığın təmin edilməsi, ehtimal edilən pozuntuların qarşısının alınması və baş vermiş pozuntuların nəticələrinin aradan qaldırılmasının təmin edilməsi məqsədilə həmin halların müvafiq komissiyanın nəzərinə çatdırılmasının məqsədəmüvafiqliyi daim diqqətdə saxlanılmalıdır.

**Qeyd:** *Seçkilərin (referendumun) (bundan sonra – seçkilərin) digər iştirakçıları kimi xarici müşahidəçilər də Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən aşağıdakı şərtlərə riayət etməlidirlər:*

- *mətbuat azadlığına hörmət bəsləmək;*
- *öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;*
- *seçkiqabağı (referendumqabağı) (bundan sonra – seçkiqabağı) təşviqat materiallarının yayılmasına mane olmamaq;*
- *seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;*
- *seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;*
- *seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;*
- *seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;*
- *səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;*
- *səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;*
- *seçiciləri qeyri-qanuni hərəkətlərlə öz tərəfinə çəkməmək;*
- *seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;*
- *seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;*
- *hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materialları yaymamaq;*
- *seçicilərə mükafat təqdim etməmək, onları cəza ilə hədələməmək;*
- *dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;*
- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkindirməyə sövq etməmək;*
- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;*
- *heç bir vəzifəli şəxsin referenduma çıxarılan məsələnin, namizədin dəstəklənməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.*

## 5. Beynəlxalq müşahidəçilərin hüquq və vəzifələri

5.1. Beynəlxalq müşahidəçilərin Seçki Məcəlləsinin 40.13-cü maddəsində göstərilən hüquqlarla yanaşı, aşağıdakı hüquqları da vardır:

5.1.1. seçici siyahıları ilə tanış olmaq;

5.1.2. səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;

5.1.3. seçicilərin barmaqlarının mürəkkəblənməsini və ultrabənövşəyi lampalarla yoxlanılmasını müşahidə etmək;

5.1.4. seçki bülletenlərinin seçicilərə verilməsini müşahidə etmək;

5.1.5. səsvermə yerindən kənarda seçicilərin səs verməsini müşahidə

etmək;

5.1.6. seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;

5.1.7. müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;

5.1.8. seçki komissiyasının qanuni fəaliyyətinə mane olmadan, müşahidə aparmağı təmin edən şəraitdə və maneəsiz müşahidə aparmağa imkan verən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin (referendumun) yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər seçki sənədləri ilə tanış olmaq;

5.1.9. səslərin paralel hesablanmasında iştirak etmək;

5.1.10. səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;

5.1.11. seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara əlavə olunmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq;

**Qeyd:** *Müşahidəçinin tələbi ilə seçki komissiyası adıçəkilən sənədlərin surətlərini təsdiq etməlidir.*

5.1.12. səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;

5.1.13. müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;

5.1.14. seçki sənədlərinin dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına göndərilməsini müşahidə etmək;

5.1.15. səsvermə günündən sonra seçki qanunvericiliyi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar mətbuat konfransı keçirmək və kütləvi informasiya vasitələrinə müraciət etmək;

5.1.16. seçicilərlə, namizədlərlə, qeydə alınmış namizədlərlə, seçki komissiyalarının üzvləri, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri ilə görüşmək;

5.1.17. fəaliyyəti dövründə tərcüməçi xidmətindən istifadə etmək;

5.1.18. qanunla qadağan edilməyən digər hərəkətlər (hərəkətsizlik) etmək.

5.2. Beynəlxalq müşahidəçilərə aşağıdakı hərəkətlər qadağan edilir:

5.2.1. seçicilərə seçki bülletenləri vermək;
5.2.2. seçiciyə necə səs verəcəyi və necə səs verdiyi haqqında sual vermək;
5.2.3. seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması haqqında imza etmək;
5.2.4. seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;
5.2.5. seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;
5.2.6. seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;
5.2.7. seçicilər arasında təşviqat aparmaq;
5.2.8. bu və ya digər namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referenduma çıxarılan məsələnin dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
5.2.9. müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
5.2.10. seçicilərin barmaqlarını mürəkkəblə işarələmək və ya ultrabənövşəyi lampa ilə seçicilərin barmaqlarının işarələnib-işarələnmədiyini yoxlamaq;
5.2.11. seçicilərin suallarına (öz statusu ilə bağlı suallar istisna olmaqla) cavab vermək;
5.2.12. seçki (referendum) kampaniyasının gedişi, seçkilərin (referendumun) hazırlanması və keçirilməsi ilə əlaqədar olmayan fəaliyyətlə məşğul olmaq üçün öz statusundan istifadə etmək;
5.2.13. qanunla qadağan edilən digər hərəkətlər (hərəkətsizlik) etmək.

**Qeyd:** *1. Müşahidənin yekunlarına dair müşahidəçilərin tərtib etdikləri rəylər müvafiq komissiyaların sədrlərinə təqdim edildikdə, həmin rəy səsvermənin nəticələri və ya seçkilərin ümumi yekunları haqqında protokola əlavə edilməlidir.*
*2. Səsvermə günü səsvermə otağında olan və seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə edən şəxslərin siyahısı məntəqə seçki komissiyasının katibi tərəfindən aparılır.*

## 6. Tərcüməçinin qeydə alınması qaydası

6.1. Seçki prosesində beynəlxalq müşahidəçilərə tərcüməçilik xidməti göstərmək niyyətində olan şəxs bu Təlimatın 2.1-ci bəndində göstərilən müddətdə müvafiq ərizə ilə Mərkəzi Seçki Komissiyasına müraciət edir (Təlimata 3 saylı əlavə). Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunur.
6.2. Mərkəzi Seçki Komissiyası bu Təlimatın 2.3-cü bəndində göstərilən tələbləri nəzərə almaqla həmin şəxsə müvafiq lövhəcik (Təlimata 4 saylı əlavə) verir.
6.3. Tərcüməçinin səlahiyyət müddəti tərcüməçilik xidməti göstərdiyi şəxsin səlahiyyət müddəti ilə məhdudlaşır.

## 7. Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti və səlahiyyətlərinə xitam verilməsi

7.1. Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti Mərkəzi Seçki Komissiyasında qeydə alındığı gündən başlanır və seçkilərin (referendumun) yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün bitir.

7.2. Beynəlxalq müşahidəçilər Azərbaycan Respublikasının qanunlarını, beynəlxalq hüquq normalarını pozduqları hallarda Mərkəzi Seçki Komissiyası onların qeydiyyatını ləğv edə bilər.

7.3. Beynəlxalq müşahidəçinin səlahiyyətlərinə qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda və qaydada da xitam verilə bilər.

| | **AZƏRBAYCAN RESPUBLİKASINDA**<br>________________________<br>*seçki (referendum)* | SEÇKİ<br>(REFERENDUM)<br>İLİ |
|---|---|---|

## BEYNƏLXALQ MÜŞAHİDƏÇİNİN ƏRİZƏSİ

Xahiş edirəm məni "___"________20___-ildə Azərbaycan Respublikasında keçiriləcək ________________________________________
*seçki (referendum)*
beynəlxalq müşahidəçi kimi qeydə alasınız.

Ərizəyə pasportumun surətini və 2 ədəd fotoşəklimi (3X4 sm ölçüdə) əlavə edirəm.

*Soyadım:*________________________________________________

*Adım:* ________________________________________________

*Atamın adı:* ________________________________________________

*Əlaqə ünvanı:* ________________________________________________

*Telefon:* ______________ *Faks:*_____________ *E-poçtu:* ___________________

*Vətəndaşlığım:* ________________________________________________

*Pasportumun (və ya şəxsiyyətimi təsdiq edən digər sənədin) seriyası və nömrəsi:* ________________________________________________

*Təmsil etdiyim ölkə, təşkilat:* ________________________________________

*İş yerim, peşəm, fəaliyyət növüm:* ____________________________________

*Seçkiləri müşahidə etmək təcrübəm (ölkə və il):* ________________________

________________________________________________________________

*Əlavə olaraq, beynəlxalq müşahidəçi kimi qeydə alındıqdan sonra, müşahidənin aparılması zamanı faktlara, qanunçuluq, müstəqillik, qərəzsizlik, obyektivlik kimi prinsiplərə əsaslanacağımı və seçki qanunvericiliyinə, həmçinin digər qanunlara riayət edəcəyimi bildirirəm.*

*Əmin edirəm ki, beynəlxalq müşahidəçinin hüquq və vəzifələri ilə, onun yerinə yetirdiyi funksiyalarla tanışam. Heç bir halda seçki orqanlarının, onların rəsmi şəxslərinin işinə, siyasi partiyaların, siyasi partiyalar bloklarının və onların namizədlərinin, digər seçki subyektlərinin fəaliyyətinə, eləcə də Azərbaycan Respublikası vətəndaşlarının seçib-seçilmək hüququnun həyata keçirilməsi prosesinə müdaxilə etməyəcəyəm.*

*Azərbaycan Respublikasına gəlmə tarixi:* ______________________

*Azərbaycan Respublikasından getmə tarixi:* ___________________

*Adım, soyadım, imza, imzanın qoyulduğu yer və tarix*:

____________________________________________________________

**Qeyd:** *bu ərizə forması müşahidəçi tərəfindən Azərbaycan Respublikasının dövlət dilində və ya xarici dillərin birində doldurulur.*

*Təlimata 2 saylı əlavə*

MSK №

AZƏRBAYCAN RESPUBLİKASINDA

_____________________
*seçki (referendum)*

_____________________
*election (referendum)*

OF THE REPUBLİC OF AZERBAİJAN

**SEÇKİ (REFERENDUM) MÜŞAHİDƏ MİSSİYASI**

**– SEÇKİ (REFERENDUM) İLİ –**

**ELECTİON (REFERENDUM) OBSERVATİON MİSSİON**

*Fotoşəkil*

Təşkilatın adı/ Name of organization

**Soyadı və adı**

**Pasport:**

**Etibarlıdır:** ________
*tarix*

**BEYNƏLXALQ MÜŞAHİDƏÇİ**

*lövhəciyin arxa tərəfi*

Müşahidənin prinsipləri:

- seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərməməlidir;
- müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;
- müşahidə açıq aparılmalıdır;
- müşahidənin yekunları faktlara əsaslanmalıdır.

*(Seçki Məcəlləsi, maddə 41.1).*

Beynəlxalq müşahidəçilər seçki kampaniyasının gedişi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar olmayan fəaliyyətlə məşğul olmaq üçün öz statusundan istifadə edə bilməzlər.
*(Seçki Məcəlləsi, maddə 44.10).*

Beynəlxalq müşahidəçi qanunları, beynəlxalq hüquq normalarını pozduğu hallarda Mərkəzi Seçki Komissiyası onun qeydiyyatını ləğv edə bilər.
*(Seçki Məcəlləsi, maddə 44.11).*

| | | |
|---|---|---|
| | **AZƏRBAYCAN RESPUBLİKASINDA**<br>________________________________<br>*seçki (referendum)* | SEÇKİ<br>(REFERENDUM)<br>İLİ |

# TƏRCÜMƏÇİNİN ƏRİZƏSİ

"_____"__________20____- ildə Azərbaycan Respublikasında keçiriləcək ______________________________ müşahidə edən
*seçki (referendum)*
beynəlxalq müşahidə missiyasına tərcüməçilik xidməti göstərmək üçün mənə müvafiq vəsiqə-lövhəcik verməyinizi xahiş edirəm.

Mən ________________ dilini (dillərini) ___________________
*dilin (dillərin) adı* *dili (dilləri) bilmə səviyyəsi*
_______________ bilirəm və bu dil (dillər) üzrə ________________
*təhsilin növü*
təhsilim __________________________________________.
*dil (dillər) üzrə təhsilin olub-olmaması haqqında məlumat*

Ərizəyə şəxsiyyət vəsiqəsinin surətini və 2 ədəd (3x4 sm ölçüdə) fotoşəkil əlavə edirəm.

*Soyadım, adım, atamın adı:* ________________________________________

*Ünvanım:* __________________________________________________

*Telefon:* _____________ *Faks:* ____________ *E-poçtu:* __________________

*Şəxsiyyət vəsiqəmin seriyası və nömrəsi:*________________________________

__________ _______________________
*imza* *ərizəçinin inisialı və soyadı*

"____" ___________ 20 ___ - il

Ərizəyə şəxsiyyət vəsiqəsinin surətini və 2 ədəd (3x4 sm ölçüdə) fotoşəkil əlavə edirəm.

*Soyadım, adım, atamın adı:* ________________________________________
*Ünvanım:* __________________________________________________
*Telefon:* _______________ *Faks:* _____________ *E-poçtu:* _____________
*Şəxsiyyət vəsiqəmin seriyası və nömrəsi:* ______________________________

______________ ______________________________
*imza* *ərizəçinin inisialı və soyadı*

"____" ____________ 20 ___ - il